UOT 654. 197

# TELEVERİLİŞLƏRDƏ YENİ FORMA AXTARIŞLARI

**A.N.ƏHMƏDOVA**
***Bakı Dövlət Universiteti***
***arzu.ahmadova@mail.ru***

*Məqalədə dünya TV sisteminin müasir inkişaf tendensiyası, televiziyanın ictimai həyatda yeri barədə söhbət açılır. Belə bir əsas məsələ vurgulanır ki, hər hansı bir ölkədə telesistemin formalaşması mütləq şəkildə bu sahədə qanunvericiliyin yaradılması ilə şərtlənir. Bu mənada müstəqil Azərbaycan dövlətinin iradəsilə qəbul olunmuş elektron informasiya sahəsindəki qanunların mahiyyəti açılır. Belə bir şəraitdə ölkədə formalaşmış dövlət, kommersiya və ictimai televiziya sistemi qısa şəkildə təhlilə cəlb edilir, telekanalların tipoloji xarakteristikası ətrafında elmi-nəzəri fikir qoyulur. Məqalə televiziya sahəsində ən yeni yerli və xarici elmi-nəzəri ədəbiyyata söykənir.*

**Açar sözlər:** TV, radio, mətbuat, radio dalğalar, kanallar, antenna, telejurnalistika, inkişaf, təsir

Azərbaycan Dövlət Televiziyasından başlayan və müəyyən uğurlar qazanan televiziyanın peşəkarlıq axtarışları müasir dövrdə daha intensiv xarakter almışdır. Bu gün təkcə hər hansı bir ölkəni bütövlükdə əhatə edən TV kanallarla bərabər, «yerli televiziyalar da peşəkarlığın artırılması problemlərini yaşamaqdadırlar» [6,159]. Postsovet məkanı müstəqillik əldə etdikdən sonra bu ölkələrin hamısında ilk vaxtlar televiziya daha çox siyasi görüşləri ifadə edən, siyasi partiyaların siyasi mübarizələrini efirə çıxaran vasitə kimi tələblər qoyulurdu. Siyasi hadisələr səngiyəndən sonra televiziyanın maarifçilik, məlumatlandırmaq, əyləndirmək kimi funksiyaları işlək amillərə çevrildi. Hələ 2003-cü ildə artıq Rusiyanın özündə də siyasi görüşlərin tətbiqindən daha çox estetik vasitə kimi qəbul edilməyə başlayan televiziyada peşəkarlığın artırılması tələbi irəliyə çıxdı. «Artıq televiziyanın estetik tərbiyə vasitəsi, estetik idealın gerçəkləşməsindəki rolunu təmin etmək üçün çox vacib peşəkarlıq axtarışları başlamışdır» [5,14]. Qeyd etdiyimiz kimi, reklam bazarında reytinq göstəricisi ilə öncül yer tutmaq üçün telekanallar yeni peşəkarlığın tətbiqinə diqqət yetirirlər.

Dünya telekanallarında yaranan formatların, əyləncəli proqramların «azərbaycanlılaşdırılması» prosesi bu gün ölkəmizdə TV peşəkarlığının artma-

sına kömək edir. Məsələn, İngiltərə telekanallarında yaranmış «Milyonçu», Avropadan götürülmüş, «Qəfəs» (Lider TV), Rusiyada formalaşmış «Что, где, когда» (Az.TV-də) və s. verilişlərdə formalaşan Azərbaycan TV aparıcıları bu sahədə peşəkar əməkdaş kimi görünməyə başladılar.

Ölkəmizdə ilk yaranan və uzun müddət sovet jurnalistikası rejimində fəaliyyət göstərən Azərbaycan televiziyası 1970-ci illərdən peşəkarlıq axtarışlarına başlamış və sonralar bir çox uğurlar əldə etmişdir. Xüsusilə bu axtarışlar 1980-ci illərin əvvəllərində daha da genişlənmişdir. Hətta bəzi televiziya mütəxəssisləri «80-ci illəri Azərbaycan televiziyasında yeni üslub axtarışı» dövrü kimi qiymətləndirirlər [1, 93]. Professor Y.Əlizadə və professor Q.Məhərrəmli qeyd edirlər: «Mübaliğəyə yol vermədən deyə bilərik ki, 1980-ci ildən başlayaraq Azərbaycan televiziyamız əsl yetkinlik dövrünü yaşamışdır. Bu yetkinlik həm verilişlərin forma və məzmununda, həm də televiziyanın ictimai həyata təsirinin güclənməsində özünü göstərirdi. İndi verilişlərdə özünü geniş şəkildə göstərən yaradıcılıq axtarışlarında…narahat dünyamızın nəbzinin gərgin döyüntüsünü operativ şəkildə tamaşaçılara çatdırmaq, onların asudə vaxtını daha məzmunlu etmək meyli güclənmişdi. Efirə gedəcək verilişlər tamaşaçı marağını ödəyəcək bir biçimə salınmışdı» [1, 93]. Aparılan tədqiqatlara görə bu dövrdə Azərbaycan televiziyasında sosial, ədəbi-bədii, beynəlxalq, musiqi və s. mövzularda proqramlarda peşəkarlıq axtarışlarının nəticələri duyulurdu. Y.Əlizadənin və Q.Məhərrəmlinin fikrincə, televiziyada peşəkarlıq axtarışlarının güclənməsi ona rəhbərlik edən kadrlardan da asılı olmuşdur. Bu mənada E.Quliyev, M.Murad kimi rəhbər kadrların fəaliyyəti və onların dövründəki yaradıcılıq axtarışları müsbət qiymətləndirilir.

Y.Əlizadə və Q.Məhərrəmli Azərbaycan televiziyasında yaradıcılıq axtarışlarının daha çox meydana gəlməsi zamanını Məmməd Murad kimi bir kadrın televiziyaya rəhbərlik məqamı ilə bağlayırlar. Müəlliflər bu barədə tədqiqatlarında göstərirlər ki, televiziyadakı sükut buzunu 1991-ci ilin sonlarında şirkətə sədr təyin olunan şair-publisist Məmməd Murad sındırmağa cəhd göstərdi. İlk gündən ciddi struktur və kadr dəyişikliyi aparan sədr, ilk növbədə ekrana ağırlıq gətirən və sosializm ab-havasını yaşadan təbliğat-təşviqat xarakterli verilişləri dayandırdı. İdeologiya, sənaye, kənd təsərrüfatı və tikintiyə aid bəsit, bayağı verilişlərə də «müharibə» elan edən M.Murad televiziya üçün səciyyəvi olmayan redaksiyaları studiya forması ilə əvəz etdi. Müxtəlif mövzulardan bəhs edən və tamaşaçı üçün maraqlı olmayan 20-30 dəqiqəlik videokanal formatları götürməyə başladı. Yeni formanın üstünlüyü toxunulan mövzuya, qaldırılan problemlərə kompleks yanaşmağa, onu hərtərəfli təhlil etməyə imkan verməsi, mənfi cəhəti isə bəzən uzunçuluğa, artıq təfərrüatlara aparıb çıxarması idi. 1991-ci ilin sonları və 1992-ci ilin əvvəllərində efirə çıxmış «Radikal», «Asiman», «Sarı sim», «Göy qurşağı», «İncəsənət» və s. kimi mürəkkəb quruluşlu proqramlarda bir sıra ciddi siyasi, sosial-mədəni və mənəvi problemlərə toxunulmuşdur [1, 93].

Belə bir fakt da həqiqətdir ki, «M.Muradın rəhbərliyi dövründə televi-

ziyada nəzərə çarpan çox mühüm yeniliklərdən biri də uzun müddət Azərbaycan ekranında hakimlik etmiş diktor institutunun ləğvi oldu» [1,93]. Bu mühüm addım aparıcılıq qabiliyyəti olan istedadlı jurnalistlərin efirə çıxmasına yol açdı. Televiziya tarixində peşəkarlıq axtarışlarının mühüm addımlarından biri kimi qiymətləndirilən aparıcı tətbiqini o zaman xeyli populyar olan «Yeni fikir» qəzeti belə dəyərləndirirdi: «Azərbaycan televiziyası diktordan imtina edərək aparıcıya üstünlük verməsi ilə peşəkarlığın yeni bir mərhələsinə qədəm qoyur» [3, 4]. Düzdür, efiri yaxşı duyan tamaşaçı ilə ünsiyyət qura bilən belə peşəkar jurnalistlərin sayı çox deyildi, amma hər halda uzun illər tamaşaçının gözlərini yormuş, başqalarının yazdığını oxuyan «ütülü» diktorlardansa, indi jurnalistlərin aparıcılığı tamaşaçılarda daha güclü maraq oyadır və onları daha çox inandıra bilirdi. Həmin dövrdə «24 saat» informasiya proqramının məzmun və strukturunda ciddi dəyişikliklər edilməsi, «1000 saniyə» adlı gecə informasiya proqramının efirə çıxması, eləcə də «215 Kl» eksperimental stüdiyasının yaradılması da televiziyada əsl yaradıcılıq prinsiplərini inkişaf etdirmək baxımından irəliyə doğru atılan mühüm addımlar oldu. Adını tez-tez çəkdiyimiz tədqiqat əsərində doğru göstərilir ki, proseslərin gedişi təbiəti etibarilə islahatçı sayılan və «Avropa standartlarına» uyğun televiziya yaratmaq istəyində olan M.Muradın bəzən kəskin görünən addımları arxasında konkret yaradıcılıq məqşədi dayanırdı: milyonların baxdığı Azərbaycan televiziyası daha belə bəsitlik girdabında qala bilməz, bu televiziya həyata baxış prizmasını dəyişməli və yaradıcılıq çərçivəsini genişləndirərək cəsarətlə dünyaya üz tutmalıdır. Bu mənada haqqında danışdığımız dövrdə Azərbaycan televiziyasında gedən yeniləşmə prosesinə Rusiyada təzəcə yaradılan dövlət televiziyasının fəaliyyəti, xüsusən hər buraxılışı böyük maraq doğuran «Vesti» informasiya proqramının böyük təsiri olmuşdur. Televiziya yaradıcılığına ənənəvi baxışın dəyişməsində, xüsusən rejissor işinin canlanmasında, səthi, təsviri verilişlərin analitik materiallarla əvəzlənməsində, bir sıra maraqlı aparıcıların, eləcə də müəllif-jurnalistlərin meydana çıxmasında həmin dövr önəmli yerə malikdir» [1, 93].

«Azərbaycan efiri: tarix və müasirlik» əsərinin müəllifləri göstərirlər ki, TV-də yaradıcı mühit genişləndikcə bu qüsurlar tədricən aradan qaldırılırdı». Yeni yaranan «Cəbhə gündəliyi», «Cəbhə görüşləri», «Hərb tariximizdən», «Vətən naminə», «Əsgər poçtu» kimi verilişlərdə mübariz əhval-ruhiyyə özünü göstərməyə başlayırdı. Mübarizlik, nöqsanlara qarşı barışmazlıq, həyata yeni prizmadan baxış və tənqid meyli «Xəbərlər» proqramlarının ayrı-ayrı süjetlərində, «215 K təqdim edir», «Xoş gördük», «Qulp» və s. kimi verilişlərdə də öz əksini tapırdı. Tamaşaçıların rəğbətini qazanan belə proqramlar bir daha onu göstərirdi ki, televiziya artıq «yuxarılar»ın zəhmli göstərişlərindən çəkinmir, nisbətən müstəqil fəaliyyət göstərməyə meyl edirdi. İndi elə bir qapalı, qadağan olunmuş mövzu, bağlı sahə qalmamışdı ki, jurnalistlər ora nüfuz edə bilməsinlər [1, 93]. Bu dövrdə (1993-cü ilin fevral-mart ayları) ilk dəfə olaraq «Televiziya və radio yayımı haqqında» qanun layihəsi hazırlanıb parlamentə təqdim edilir, televiziyanın maddi-texniki bazası əsaslı şəkildə möhkəm-

ləndirilir, «BETACAM» standartına keçmək, texnoloji cəhətdən daha müasir çəkiliş və montaj avadanlığı almaq üçün tədbirlər görülür. Yeni veriliş layihələrini gerçəkləşdirmək üçün addımlar atılır.

Müstəqillik illəri Azərbaycan televiziyasının həyata baxış prizmasını xeyli dəyisdirdi, yaradıcılıq çərçivəsini genişləndirdi. Dünya təcrübəsindən bəhrələnmək, qloballaşan dünyanın telealəminə inteqrasiya qaçılmaz oldu.

Azərbaycan teleməkanında peşəkarlıq axtarışlarını dövrlərə və mərhələlərə görə araşdıran Elçin Əlibəyli dünya telekanallarının əksəriyyətində proqram cədvəlində xüsusi yer tutan «Səhər» proqramlarını təhlilə cəlb edir. Əvvəlcə Az.TV-nin səhər proqramını araşdıran tədqiqatçı belə bir qənaətə gəlir ki, «dünya televiziya kanallarında tətbiq olunan səhər proqramları modeli Azərbaycan televiziyasında da görünməyə başladı. Həftənin istirahət günləri səhər efirində tamaşaçı əyləncə, informasiya və maarifləndirmə ilə zəngin, maraqlı bir proqramı - «Dalğa»nı gördü. Özünün cəsarətli fikirləri, mövcud standartlardan fərqli, canlı, dinamik aparıcıları ilə müxtəlif sahələrə nüfuz edərək problemləri qabardan, illərlə haqqında danışılmayanlardan cəsarətlə danışan proqram tamaşaçıda böyük maraq oyada bildi. Veriliş tez bir zamanda populyarlıq qazanmaqla, öz ətrafına olduqca nıüxtəlif düşüncəli, zövqlü insanları toplaya bildi. İstirahət günləri ekranda olan «Dalğa» bu tələblərə cavab verməsə də, demokratikləşmə axınında 1980-ci illərin sonunda özünün yeni forma və təqdimatı ilə tamaşaçı marağına səbəb ola bildi. Bu baxından «Dalğa» özünün publisist gücünə və cəsarətli mövqeyinə görə köklü şəkildə fərqlənirdi». Əlbəttə, tədqiqatçının bu fikirlərində həqiqət var: «Dalğa» yeni proqram formatı kimi maraqlı olmuşdur. Lakin proqramın xüsusi ideoloji aspekti də qeyd edilməli idi. E.Əlibəylinin Azərbaycan mətbuatının o zaman və ondan sonra «Dalğa» proqramının məqsədli ideoloji istiqamətini açıqlayan materiallarını nəzərə almadan, onun yalnız müsbət tərəflərini qeyd etməsi elmi yanaşmadan uzaqlaşır. Bircə «Dalğa» proqramının sırf siyasi mövqeyini tənqid etmək elmi olardı.

Müstəqillik dönəmində gündəlik səhər proqramının ekranda görünməsinə böyük zərurət meydana çıxdı. 1992-ci ildə «Sabahınız xeyir» səhər proqramı dövlət televiziyasında yayımlanmağa başladı. Özünün yenilikçi forma axtarışları ilə seçilməyən proqram tamaşaçılar arasında böyük rəğbət qazana bilmədi və ölkədəki siyasi durum nəticəsində cəmi bir il fəaliyyət göstərdikdən sonra işini dayandırdı. Olkə teleməkanında özünün peşəkar səhər verilişi qaydalarına uyğun gələn, bu prinsiplər üzərində qurulan ilk uğurlu layihə telejurnalist Qulu Məhərrəmlinin rəhbərliyi ilə 1995-ci ilin 14 avqustunda efirə çıxan «Səhər» musiqi-informasiya proqramı oldu. «Mübahisəsizdir ki, bizim telekanallar şəbəkəsində səhər proqramlarının ən ciddi şərhində, Az.TV-nin gündəlik yayımı axarında kəskin formada bu proqramın baxımlılığına və yayım keyfiyyətinə gorə seçildiyini qeyd etmək olar. «Səhər» proqramı teleməkanda göründüyü dövrdən başlayaraq özünün peşəkar yaradıcı fəaliyyəti, yenilikçiliyi ilə nəinki Az.TV-nin bütün verilişlərindən seçilirdi, həmçinin ondan sonra ekrana vəsiqə qazanan kommersiya kanallarının səhər proqram-

larından özünün gücü, yaradıcı səviyyəsi ilə üstün yer tutur» [1, 93].

Özünün mozaik dramaturji strukturu ilə seçilən «Səhər» musiqi informasiya proqramlarında əhatə dairəsinə görə müxtəlif sahələri əks etdirən süjetlərin, xəbərlərin, rubrikaların maraqlı ekran həlli tamaşaçının diqqətini cəlb etməkdədir. Proqramın içərisində «24 saat» informasiya bülleteni, «Servis», «Hüquq məsləhəti», «Həkim məsləhəti», «Aerobika», «Səhər zəngi», «Replika», «Şənbə qonağı» rubrikaları, həmçinin gündəlik buraxılışlarda müxtəlif sahələrin mütəxəssisləri kimi dəvət olunan qonaqların problemlərdən, mədəni, siyası, iqtisadi, idman nailiyyətlərindən söhbət açması səhər tamaşaçısı üçün zəngin informasiya qaynağı, istiqamətverici və yönəldici rol oynayır. Musiqi nömrələrinə, kliplərə geniş yer verən proqram səhər tamaşaçısının əhvalının köklənməsində, onda müsbət emosiyaların yaranmasında fəal iştirak edir. Müxtəlif yaş nümayəndələri, işə və dərsə gedən şəxslər, evdar qadınlar bu proqqram vasitəsilə istər ən son xəbərləri almaq, maraqlı informasiyalarla silahlanmaq, istərsə də səhəri xoş əhvala kökləmək imkanı qazanır. Verilişin konsepsiyasında özünə yer alan bu ideya uğurlu ekran əhvalı vasitəsilə effektiv təsir edə bilir. Müasir televiziya yaraıdıcılığı prinsiplərinə söykənən proqram özünün yenilikçiliyi, bu günlə səsləşən tərzi, tempi ilə tamaşaçını ekran qarşısına toplamaq gücünə malik olur. Aparıcıların rəvan, aydın nitqi, qaldırılan məsələlərin dərinliyi, əhatəliliyi proqramın yaradıcı səviyyəsini yüksəldən əsas amil kimi göstərilməlidir. Elçin Əlibəylinin fikrincə «Səhər» proqramının rəngarəngliyi, mövzu əlvanlığı və əhatə etdiyi məsələlərin miqyaslılığı tamaşaçıya hansı sahədən olursa-olsun, ən qısa, yeni xəbəri almaq imkanı qazandırır. Bunu «Səhər»in mühüm uğuru kimi dəyərləndirərək, onun «24 saat» xəbər bülleteninin Az.TV-nin digər xəbər proqramlarından daha əhatəli, dinamik, maraqlı qurulmasını xüsusi qeyd etməliyik. Bu barədə «İnformasiya funksiyası bölməsində» danışdığımızdan yalnız «24 saat»ın dinamik təqdimatı televiziyanın inteqrativ funksiyasının icrasını həyata keçirtməkdə özünün fəal iştirakını göstərmiş olur - fikrini əlavə etmək istərdik. «Səhər»in mövzu əlvanlığı inteqrativ funksiyanın icrasına tamlıqla imkan verə bilir. Burada müxtəlif insanların bir araya gəlməsinə imkan verən cəhətlər təqdirəlayiq hadisə kimi dəyərləndirilməlidir.

Proqramın estetik həllində də nəzərə çarpacaq cəhətlər duyulurdu. Bütünlüklə məzmunla uzlaşan, onunla üzvi vəhdətdə olan forma xüsusiyyətləri baxımlı, olduqca ifadəli idi. Bəzi hallarda qrafika işində primitivlik özünü göstərsə də, ümumilikdə maraqlı forma seçimi tərifəlayiqdir. «Bir sual-bir cavab», «valyuta məzənnələri» rubrikalarında təqdimat forması, görüntünün estetik quruluşu yorucu, dinamikadan uzaq, zövqsüz olduğundan bunu qüsurlu cəhət kimi qeyd etməliyik. Amma arakəsmə rolunu oynayan və rubrikadan-rubrikaya keçidi dolduran təqvimin hər fəsilə və aya uyğun tərzdə tərtib olunması xüsusilə gözəl və zövqlüdür. Proqramın başlığında, keçidlərdə, ad təqdimatında və sonda seçilən qrafik həlldə elementlər, onların rəng quruluşu ovqatı qaldıracaq isti, xoşagəlimli rəng çalarları ilə qurulduğundan göz

qavramasına müsbət təsir edir. Bu qrafik həll mürəkkəb deyil, xüsusi dinamikaya da malik deyil, lakin zövqlü və ruhlandırıcıdır. Nə olduqca templi musiqi, nə də görüntünün çevik dəyişimi səhər proqramları üçün arzuolunan deyil. Bir çox hallarda əlavə dinamika, sürətli ritm aqressivlik xüsusiyyəti yarada bilir ki, bu da səhərlər özünü müsbət enerji ilə kökləməli olan tamaşaçı üçün yolverilməzdir. Həmçinin görüntü həllinin və keçidləri həyata keçirən qrafik işin ləngliyi də əhvala mənfi təsir edə bilər. Ona görə də, burada dinamika səhər işə gedən adamın əhvalını kökləyəcək tərzdə olmalıdır. «Səhər»in qrafik həlli, eləcə də leytmotiv musiqi parçaları olduqca uğurlu və düzgün tapılıb.

Studiya tərtibatı işi səhər proqramları üçün, adətən, ev mühiti yaratmaq məqsədi daşıdığından burada genişlik, açıqlıq, rəng neytrallığı başlıca əhəmiyyət daşıyır. Tamaşaçının evinə səhər obaşdan qonaq düşən proqram mənzilin davamı kimi görünməli, göz oxşamalı və lazımsız əşyalarla yüklənməməlidir. «Səhər»in studiya tərtibatında rəng harmoniyasının xoşagəlimli olması, oturacaqların geniş və rahat təəssürat yaratması, arxa fonda şəhər planının verilməsi, studiyada estrada səhnəsinin qurulması maraqlı forma kimi dəyərləndirilməlidir. Tərtibat halının sadə və zövqlü həlli görüntüyə yoruculuq gətirməyib, lazımsız qarmaqarışıqlıq yaratmayaraq səhər əhvalına yaxın tərzdə qurulmuşdur. Burada istedadlı rəssam işinin uğurunu qeyd etmək gərəkdir. E.Əlibəyli proqramın nöqsanlarını da qeyd edir: «Bütün bu uğurlu tərtibat elementlərinə baxmayaraq, «Səhər» proqramında bir sıra rubrikaların görüntü həlli uzun müddət efirdə olan forma, yoruculuq gətirməklə bərabər, tamaşaçı marağını azaltmış olur. Xüsusən də bunu «Səhərin təqvimi» rubrikasına aid etmək olar. Burada seçilən formanın dinamikasızlığı, zövqsüz qrafika həlli artıq neçə illərdirki, dəyişməz qalır. Bu isə rubrikanın baxımlılığına xələl yetirir. Ümumiyyətlə, proqramın formasında, tərtibatında müəyyən dövrdən sonra dəyişiklik edilməsi zəruridir. Əks halda tamaşaçının göz yorğunluğu proqramın reytinqinə təsir edə bilər».

E.Əlibəyli «Səhər» musiqi-informasiya proqramının təhlilinə yekun vuraraq, onun bədii cəhətdən kamilliyini, mövzu secimi baxımından aktuallığını, əhatəliliyini, hərtərəfli informasiyalarla zənginliyini, musiqi nömrələrinin rəngarəngliyini, çoxçeşidliliyini, tamaşaçıda maraq və baxmaq həvəsi yaratdığını qeyd edir. Bununla dövlət kanalının efirində səhər proqramı öz ətrafına tamaşaçı yığmaqla, televiziyanın ictimai vəzifəsini-inteqrasiyanı həyata keçirmə işində böyük addım atmış olur və bu işin öhdəsindən uğurla gəlir. İnteqrativ funksiyanın bütün insanları əhatə etmək və onların arasında ayrı-seçkilik yaratmağa imkan verməmək xüsusiyyəti «Səhər» proqramında özünə yer almaqla, kanalın bu işdə siyasətinin həyata keçirilməsində əhəmiyyətli yeri tuta bilir.

ANS-in efirində tamaşaçıları səhər ekran başına toplayacaq proqramın hazırlanma ənənəsi «Salam» proqramı ilə qoyuldu. Müxtəlif vaxtlarda özünün forma, məzmun biçimini dəyişən proqramın əhatəliliyi maraq yaratsa da, aparıcılar, əvvəl Arzu, sonralar Diktor Ziya, Nigar Şıxlinskaya və digərlərinin uğursuzluğu verilişin tezliklə kanal tərəfindən başqa layihə ilə əvəzlənməsinə

səbəb olmuşdur. 2002-ci ilin sentyabrından isə ANS-in səhəri saat $7^{00}$-dan $10^{00}$ -a qədər «Şirin çay» əyləncəli informasiya verlişi ilə açılır. Həftənin iş günləri efirdə olan proqram şənbə günü «Şirin çay+» adı ilə tamaşaçılarla görüşə gəlirdi.

Az.TV-nin «Səhər» əyləncəli informasiya proqramından fərqli olaraq, «Şirin çay» səhər işgüzarlığı prinsipi üzərində qurulmaqla infarmasiyaya daha geniş yer verir və özünün mürəkkəb strukturu ilə seçilirdi. Proqram təyinatına görə özündə həm əyləncə, həm də informasiya fıınksiyasını birləşdirməklə, buna uyğun olan müxtəlif buraxılışlar, musiqi nömrələrini zənginliyini göstərməyə çalışırdı. Miqyasca daha geniş mövzu əhatəliliyini götürən «Şirin çay»ın müxtəlif sahələri əhatə edən xəbərləri ardıcıl verməsi, gündəmdə olan məsələlərin, problemlərin, hadisələrin peşəkarların iştirakı ilə çözülməsini təqdim etməsi maraqlı, dinamik və günün tempinə uyğundur. Siyasi, mədəni, iqtisadi, idman xəbərlərinə yer verən «Şirin çay» əyləncə və musiqi elementləri ilə səhər saatını maraqlı və baxımlı edirdi. Mövzu çoxşaxəliliyi, müxtəlif peşə və nəslin nümayəndəsi olan şəxslərin qısa, ən başlıcası isə lazımi informasiyaları almağa imkan verməsi televiziyanın inteqrativ funksiyasının icrasını layiqincə yerinə yetirməsini təmin etmiş olurdu.

«Şirin çay»ın bədii və yaradıcı gücünü zəiflədən tamaşaçını maraqlandıracaq forma, görüntü plastikasının, rəvan keçidlərin, yenilikçi axtarışların olmaması, kifayət qədər kobud texniki və bədii səhvlərin özünü təzahür etdirməsidir. İdeya kimi kifayət qədər maraqlı, baxımlı və tamaşaçı üçün lazımlı olan, həmçinin ANS kanalının səhər proqramını zənginləşdirən, ona tamaşaçı diqqətini yönəldən və inteqrativ funksiyanı icra edən «Şirin çay» əyləncəli informasiya verilişinin bu yaradıcı nöqsanlarını aradan qaldırmaqla, daha uğurlu efir yayımına nail olmaq olar. Bu məsələ kanal və eləcə də, səhərini işgüzar əhvalda kökləyənlər üçün lazımlıdır. Səhər verilişlərinin bolluğunda özünün yaradıcı, görüntü üstünlükləri ilə marağı cəlb etməli olan «Şirin çay», həmçinin öz efirində uzun-uzadı söhbətlərin miqdarını azaltmağa doğru addım atmalıdır. Bir çox hallarda dəvət olunmuş peşəkarların və ya məmurların yorucu, terminologiyalarla zəngin, kütləvi tamaşaçı qavramasına yönəlməmiş söhbəti seyrçinin marağını azaltmaqla, onun kanal dəyişiminə rəvac verir. «Space» kanalında həftənin iş günləri «Sabah», şənbə və bazar günləri «Günaydın» bədii-publisistik proqramları saat $9^{00}$-dan $11^{00}$-a qədər tamaşaçılarla görüşə gəlir. Efirə çıxma saatının artıq səhər proqramına uyğunsuzluğunu qeyd etməklə, onun janrında özünə yer almış bədii-publisistik formanın doğru olmadığını söyləməliyik. Bu barədə BBS kanalının «Bu gün» proqramının sabiq prodüsserinin fikirlərini öz kitabında əsas gətirən Elşad Quliyev yazır «... Stiv Fridmen üç əsas fikir irəli sürür: proqram tamaşaçı hələ yuxuda olarkən baş verən bütün hadisələrdən bəhs etməlidir, danışıq formasında aparılmalıdır, nikbin süjetləri və gündəlik həyatda tamaşaçılara fayda verə biləcək zəngin informasiyası olmalıdır» [2,253]. Mövzunu davam etdirən teletənqidçi səhər proqramlarında italyanların və ispanların faydalı məsləhətlərə, fransızların cizgi filmlərinə, Britaniya və ABŞ tamaşaçılarının isə hava durumu, yollarda hərəkət, idman və

digər yerli xəbərlərə üstünlük verdiklərini deyir. Lakin proqramlarda özünü bu cür adlandıran «Sabah»ın yaradıcı heyəti informasiyalara, mövzu ətrafında qonaqların dəvət olunmasına və musiqiyə yer verməklə, əslində, deyilən standartlarla işləyir [2,253]. Deməli, proqramlarda təyinatı bildirən «bədii publisistik proqram» ifadəsi «Sabah»a uyğun deyil və qeyri-dəqiqdir.

«Sabah» proqramında iki saat ərzində həddən çox qonaqların gəlməsi və onlarla gündəmlə uzlaşmayan söhbətlərin aparılması tempi öldürməklə, səhər efirinə lazımsız yoruculuq gətirir. Bu yoruculuq səhər işə və dərsə gedən tamaşaçı üçün olduqca pis təsir edən amildir və tezliklə uzaqlaşdırılmalıdır. Elşad Quliyev «Sabah»ın qonaqla çox yüklənməsinə diqqət yetirərək, onu belə qiymətləndirir: «Biz belə qonaqpərvərliyin əleyhinə deyilik, lakin unutmaq olmaz kı, səhər tezdən hər qonaq tamaşaçıya xoş olmaya bilər, həm də bizdə efir üçün maraqlı olan adamlar bir o qədər də çox deyil» [4,31].

«Space»in inteqrativ funksiyasının icrasını öz üzərinə götürən səhər proqramlarının təkmilləşməsinə ciddi ehtiyac var idi, tədricən buna doğru addımlar atıldı. Bu, istər ictimai sahədə, istərsə də kanalın yaradıcı siyasətində böyük yer tutan amil olduğundan, bu işə daha diqqətlə yanaşılması kanalın üzərinə düşən başlıca vəzifədir.

«Lider» TV-nin səhər efiri saat $8^{00}$-dan $11^{00}$-a qədər davam edən, 2001-ci ilin sentyabrından efirə gedən və 2003-cü ilin sentyabrından efiri tərk edən «Tezdən oyan» və onun varisi «Sabahın xeyir, Vətən!» proqramlarıdır. «Tezdən oyan» proqramının dramaturji strukturunun qeyri-kamilliyi, konsepsiyasının bəlli olmaması və üç aparıcının özünü doğrultmayan format_kimi efirə artıqlıq gətirməsi, onların lazımsız sərbəstliklə müşayiət olunan davranışları, qonaqla məntiqsiz söhbətləri kimi ciddi qüsurları üzə çıxartdı. «Sabahın xeyir, Vətən» proqramı isə daha peşəkarlıqla, zövqlə qurulan proqram idi.

Özəl TV sistemində ANS daha çox analitik yanaşması, cəsarətli xəbər yayımı ilə, ATV əyləncəli materialları ilə, «Xəzər» Türkiyə telekanallarının üslübüna meyli ilə seçilməyə başlamışdır. Müasir dövrdə TV peşəkarlıq axtarışları özünün hüquqi və peşə etikası tələblərinə nə dərəcədə əməl etməsi ilə də ölçülür. Telekanalların ayrı-ayrı ictimai proseslərin işıqlandırılmasında beynəlxalq normalara əməl etməsini də peşəkarlıq axtarışları hesabına yazmaq olar.

Ötən əsrin 90-cı illərindən etibarən postsovet məkanında və Şərqi Avropada İctimai televiziya kanalları yaranmağa başladı. Simaları formalaşmaqda olan bu kanalların məqsədi ABŞ-ın PBS -Public Broadcasting Service kanalı kimi - İctimai Yayım Xidməti göstərməkdir, yəni kommersiya televiziyasının proqram setkasında az yeri olan, reytinq cədvəlində aşağı pillələri tutan, reklam sifarişçilərini demək olar ki, maraqlandırmayan təhsil, maarif, mədəniyyət, təlim-tərbiyə və bu kimi mövzularda verilişlər hazırlamaqdır.

Aparılan araşdırmalar göstərir ki, Azərbaycan telekanalları peşəkarlığın daha vacib komponentləri üzərində düşünmək, yeni forma və formatlar axtarmaq yolunda uğurla irəliləməkdədir.

**ƏDƏBİYYAT**

1. Əlizadə Y., Məhərrəmli Q. Azərbaycan efiri… Bakı: Nurlan, 2006, 184 s.
2. Quliyev E. Televiziya iki əsrin astanasında. Bakı: İşıq, 1993, 350 s.
3. Rəhimli İ. Axtarışlar dövrünün yaradıcı tapıntıları. «Yeni fikir» qəz. 1992, 24 mart, s. 8
4. Кулиев Э. С телекамерой и микрофоном. Баку: Ишык, 1986, 200 с.
5. Кузнецов Г.В. ТВ журналистика: критерии профессионализма. М.; РИП-Холдинг2, 2003, 224 с.
6. Зверева Н.В. Школа регионального тележурналиста. М.; Аспект-пресс, 2004, 374 с.

## ПОИСК НОВЫХ ФОРМ ТЕЛЕПРОГРАММ

**А.Н.АХМЕДОВА**

**РЕЗЮМЕ**

В статье прослеживается и анализируется история телевидения в целом и азербайджанского телевидения в частности. Делаются экскурсы в историю изобретения радио, телевидения; рассматриваются этапы возникновения, формирования и развития радио- и тележурналистики; отмечается вклад учёных в развитие физических наук и их достижения в области электродинамики. Дается сравнительная характеристика азербайджанского телевидения в годы Советской власти и в настоящее время; отмечается богатство и разнообразие его каналов, подчёркивается роль электронных СМИ. На основе конкретных фактов доказывается, что в настоящее время азербайджанское телевидение продолжает успешно развивать и набирает всё больший вес в системе СМИ.

**Ключевые слова:** телевидение, радио, пресса, радиоволны, каналы, антенна, тележурналистика, развитие, влияние

## THE SEARCH FOR NEW FORMS OF TV BROADCASTS

**A.N.AHMADOVA**

**SUMMARY**

The article analyzes the history of television, on the whole, and the Azerbaijanian television, in particicular. The most interesting facts about the history of radio, television, their inventors, as well as main stages of formation and development of radio- and telejournalism are highlighted. The scientists who made valuable contributions to the science of Physics and their scientific and technical achievements in the sphere of electrodynamics are appreciated. The author provides a given comparative description of the Azerbaijanian television during the Soviet power and nowadays: emphasizes wealth and variety of its channels, the role of electronic mass media. On the basis of the concrete facts, it is proved that the Azerbaijanian television is developing succesfully and becomes more and more influental in the mass media system.

**Key words:** television, radio, press, radiowaves, channels, antenna, telejournalism, development, influence